# FİLOLOGİYA

**DOI: https://doi.org/10.59849/2957-3882.2024.2.8**
**UOT: 821.512.161**

## TÜRK ƏDƏBİYYATINDA OBYEKTİV TƏNQİDİN TƏRƏFDARLARI

**Xuraman QƏDİMOVA***

***Açar sözlər:*** *Ədəbiyyat, Türk ədəbiyyatı, təndiq, obyektiv tənqid, subyektiv tənqid*

### XÜLASƏ

Türkiyədə professional ədəbi tənqidin inkişafı Tənzimat dövründən – 1866-cı ildən başlayaraq günümüzə qədər müxtəlif mərhələlərdən keçmişdir. Araşdırmaçılar bunların arasında iki mərhələni xüsusilə fərqləndirirlər. Namik Kamal (1840-1888), Rəcaizadə Mahmud Əkrəm (1847-1914), Nurullah Atac (1898-1957) kimi ziyalıların öncüllük etdiyi və 1960-cı illərə qədər davam edən dövr bir qayda olaraq subyektiv tənqid (*empresyonist/öznel eleştiri*) dövrü hesab olunur. Bu mərhələnin xarakterik xüsusiyyətlərindən biri poeziya ilə bağlı mübahisələrdə ənənəvi klassik şeirin yeni yaranmaqda olan modern poeziyaya rəhbərlik edə bilməyəcəyi fikrinin geniş vüsət alması və tənqidin subyektiv yanaşmalara əsaslanmaqla daha çox mübahisə və həqarət müstəvisində aparılmasıdır.

İkinci mərhələ isə Asım Bezici (1927-1993), Tahir Alanqu (1915-1973) və Hüseyn Contürk (1918-2003) kimi müəlliflərin rəhbərlik etdiyi 1960-1980-ci illəri əhatə etməklə subyektiv tənqid dövrünə son qoyan və çox vaxt da marksist tənqid adlandırılan obyektiv tənqid (*bilimsel/nesnel eleştiri*) dövrüdür. Bu mərhələyə təsir göstərən amillər içərisində, heç şübhəsiz ki, dünyada sol düşüncənin güclənməsi ön plana çıxır.

Məqalədə ikinci mərhələdə uzun illər boyu obyektiv tənqidin optimal tətbiqi yollarını axtaran, sənətkarların tənqiddə elmi təhlillərə üstünlük verməsini müdafiə edən, həmçinin tənqidçinin əsərdə duyğularını əks etdirməsinin əleyhinə çıxan, yoldaşlıq və dostluq üzərindən edilən tənqidləri rədd edən müəlliflərin fəaliyyətindən bəhs olunur. Burada adı çəkilən müəlliflərlə yanaşı, həm də türk obyektiv ədəbi tənqidinin inkişafında böyük xidmətləri olmuş Cevdet Kudret (1907-1992), Vedat Günyol (1911-2004) və Turgut Uyarın (1927-1985) fikirlərinə də diqqət yönəldilir.

### Giriş

Ədəbiyyatşünaslıqda "ədəbi tənqid" anlayışı, bir qayda olaraq, ədəbi proseslərin, bədii əsərlərin təhlili, ictimai və ədəbi-estetik dəyərlər baxımından qiymətləndirilməsi, eləcə də yaradıcılıq prinsiplərinin müəyyənləşdirilməsi və təsdiqi ilə bağlı ədəbi-bədii yaradıcılıq növü kimi başa düşülür. Platon və Sokrata dayanan bu yaradıcılıq növü Türk ədəbiyyatında Orta əsrlər boyu fərqli formalarda (*təzkirə, dibaçə* və s.) meydana çıxsa da, tədqiqatçılar onun 1839-cu ildə İstanbulun

* *F.ü.f.d., Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu (elmlər doktorluğu üzrə doktorant)*
*E-mail: xuramanqedimova@mail.ru*

Gülhanə parkında "*Hatt-ı Şerif*"in (Padşah yazısı) oxunması – Tənzimatın elan edilməsi ilə ədəbiyyatda yaranan böyük canlanma nəticəsində yeni mərhələyə qədəm qoyduğunu bildirirlər. Lakin onun müasir formaya düşməsinin 1866-cı ildən sonra başlandığı fikri irəli sürülür.

1960-cı illərdən başlayaraq isə tənqidin, daha doğrusu elmi dəyərlərə əsaslanan obyektiv tənqidin (*bilimsel/nesnel eleştiri*) sürətli yüksəlişi və hakim yaradıcılıq yoluna çevrilməsi mərhələsi başlayır. Dr. Bilgin Güngörün fikrincə, bu, hər şeydən öncə 1960-cı il may ayının 27-də baş vermiş ilk hərbi çevrilişdən sonra ölkədə sol müxalifətin nüfuzunun gedərək artması ilə bağlı olmuşdur. Əslində bu prosesə 1961-ci ildə qəbul olunmuş ölkə Kontitusiyasında sinif təməlli partiya yaratma, təşkilatlanma və mətbuat azadlığı ilə bağlı haqların təsbiti yol açmışdır. Həmin dövrdə Şimali Afrikada müstəmləkəçilik əleyhinə mübarizə, Vyetnam savaşı, eləcə də 1968-ci ildə Parisdə prezident Şarl de Qol (1890-1970) əleyhinə tələbə hərəkatı kimi amillərin rolu da danılmazdır. Məhz bütün bunlar hamısı birlikdə sol düşüncənin Türkiyədə siyasətə, mədəniyyətə və ədəbi tənqidə dərin təsir göstərməsinə yol açmışdır (Güngör, 2020, s.18).

**Obyektiv tənqidin liderləri**

**Asım Bezirci**. Tənqid, tərcümə və tədqiqat əsərləri ilə məşhur olan Asım Bezirci "Yeni üfüqlər", "Ataç", "Xalqın dostları", "Militan" və "Politika" kimi jurnallarda ədəbi və elmi dəyərini hələ də saxlayan məqalələr yazmışdır. O, Nurullah Atacın təbliğ etdiyi subyektiv tənqid (*özneli eleştiri*) anlayışına qarşı çxmışdır.

"Bilimden Yana, Sosyalizme Doğru" adlı əsərinin nəşrindən (1963) etibarən obyektiv tənqidi (*nesnel-bilimsel eleştiri*) müdafiə etmiş, qiymətləndirmələrini sosialist realizmini əsas tutaraq marksist anlayışla aparmağa başlamışdır. Professor Yıldız Ecevit də haqlı olaraq onun "plüralist-eklektik xətti" ifadə edən bu əsərinə əsasən zaman-zaman marksist tənqid üsulları ilə məşğul olduğunu bildirir (Ecevit, 2009, s.96). Yəni impressionist tənqidlə məşğul olan Asım Bezirci tənqidin sosialist xəttini də mənimsəmişdir.

O, öz yazılarında tənqidin təhlilə əsaslanmalı olduğunu, tənqidçinin yaşam tərzi ilə bağlı fikir və hisslərə yer verməkdən çəkinməli olduğunu vurğulamışdır (Aytac, 2020, s.49).

Bu qeydlər Asım Bezircinin ədəbiyyata baxışlarını qiymətləndirmək baxımından olduqca dəyərlidir: "Mənim yazmağa başladığım illərdə bu ölkədə bir Avropa heyranlığı vardı. Avropa pərəstişkarlığını pisləmək fikrində deyiləm. Gözümüzü Avropadan çəkməməliyik, saya gəlməz mənimsənəcək nüanslar var. Adət-ənənələrimizə sadiq qalaraq Avropa müəlliflərinin kitablarını qapadıb öz ədəbiyyatımızla kifayətlənməyi məsləhət görənlər var. Mən onlardan deyiləm, özümüzü Avropa mədəniyyətinin içində əritməliyik – onun sivilizasiyasındadır qurtuluşumuz. Gənc tənqidçilərimizdən biri, Məhmət Kaplan Akifi müsəlman olduğu üçün sevmədiyimi deyir. "Tövbə, əttövbə, xəta rahinə getdiklərimə, Bilib etdiklərimə, bilməyib etdiklərimə!" – deyən şairi* sevirəm, Süleyman Çələbini sevirəm, bayağı deyillər. "Mədəniyyət dediyin tək dişi qalmış canavar" deyən şair isə tamamilə bayağı bir şairdir. Məhəllə qəhvəxanasının mütəfəkkiri. "Hicab qaldırıldı, bərəkət getdi" – deyə dedi-qodu edən yığınağın ziyalısı Mehmət Akif. O, təkcə Qərb sivilizasiyasını deyil, Şərq sivilizasiyasını da sevmir. İncə tərəfini sevməz o sivilizasiyanın. Şirazlı Hafizə də, Nədimə də söyər, şeirə düşməndır. "Avropaya yönəlməyimizi, Avropa mədəniyyətimizi mənimsəməmizi istəməyənlər daim Mehmət Akifin ətəyindən yapışsınlar. Mən, Mehmət Akifçi deyiləm. Amma mənim yazı yazmağa başladığım illərdəki Avropa heyranlığı kor-koranə heyranlıqdı" (Bezirci, 1996, s.49).

"Bilimden Yana, Sosyalizme Doğru" və "Sosyalist eleştiri" kimi əsərləri ilə Bezirci, marksist tənqidin nəzəri qismini dərindən və sistemli bir şəkildə araşdırmışdır. Bununla birlikdə, o, nəzəri

** Bezirci burada M.Ə.Sabiri nəzərdə tutur.*

tənqiddən daha çox praktik tənqidə üz tutmuşdur. Buna misal olaraq “İkinci Yeni Olayı” başlıqlı yazısı göstərilə bilər. Müəllif yazır: “DP – Demokrat Partiya II Dünya müharibəsi ərəfəsində və o illərdə getdikcə böyüyən burjuaziyanı təmsil edir. Onun üçün CHP-nin arxasını dayadığı iqtidar hegemonluğunu dağıtmaq Amerikanın da arzu və istəklərinə uyğun olaraq onun köməyi ilə burjuaziya xeyrinə liberalist bir iqtisadiyyat və siyasi düzən qurmaq istəyir. Türkiyənin xüsusi qaydaları, iqtisadi quruluşu və tarixi xatırlanmadan tətbiq edilməyə çalışılan bu düşüncələr ateist-tacir-sənayeçi təbəqələrin gündən-günə güclənməsinə və işçi-kəndli-məmur-əsgər siniflərin yoxsullaşmasına yol açır” (Bezirci, 1960, s.64).

Bəzircinin tənqidində önə çıxan xüsusiyyətlərindən biri də elmə və obyektivliyə sonuna qədər sadiq qalmaqdır. “Mustafa Subhi dastanı” başlıqlı yazısında 1960-1980-ci illər arasında ictimai şeirin yaradıcılarından biri olan Ataol Behramoğlunun qələmə aldığı “Mustafa Sübhi dastanı”nı bu ifadələrlə təqdim etmişdir: “Bununla belə, nəql edilən tarixi sənədlər ilə sərgilənən hadisələrin çoxluğu və bunlardan bəzilərinin Mustafa Subhiylə birbaşa bağlantısının olmaması xırdalıqları qiymətləndirməyə mane olur. Bundan əlavə, ümumi-sosial vəziyyətin çəkisi və genişliyi şəxsi-fərdi vəziyyətə də təsir edir, mane olur. Buna görə də Mustafa Suphi dastanda kifayət qədər dəqiqləşdirmə aparmır, fikrini aydın və dəqiq ifadə etmir” (Cöntürk-Bezirci, 1961, s.64).

Bəzirci bir qayda olaraq tənqidlərini sistemli təhlil əsasında qurmuş və fikirlərini obyektiv nöqteyi-nəzərdən əsaslandırmışdır. Ədəbi əsəri tarixi elementləri ilə dəyərləndirərkən analitik qiymətləndirmə metodunu qəbul etmişdir. Məsələn, “İkinci yeninin xüsusiyyətləri” yazısında hərəkatı qısaca təqdim etdikdən sonra onun Qərb hərəkatı ilə oxşar və fərqli cəhətlərinə diqqət çəkmiş, ən sonunda “İkinci yeni” estetikasını incələmiş (“ənənəni pozmaq”, “formalizmə sürüşmək”, “əvəz etmək”, “qarışdırmaq” və s.) və bir-bir izah etmişdir (Bezirci, 1960, s.51).

“Nurullah Ataçın eleştiri anlayışı” adlı məqaləsində isə Bəzirci subyektiv tənqidin ünlü ismi Ataçın tənqidi fəaliyyətini “subyektivizm dövrü” və “obyektivizm dövrü” kimi bölmələrə ayırdıqdan sonra bu dövrləri müsbət və mənfi misallar və örnəklərlə izah etmiş, onun subyektiv-impressionist tənqiddə (*öznel-izlenimci eleştiri*) də bir uğur qazanmadığını ifadə etmişdir.

**Tahir Alangu**. Ədəbiyyat aləminə “Gündüz” jurnalında dərc olunmuş bir şeiri ilə qədəm qoyan Tahir Alangu yazıçı, ədəbiyyat tarixçisi, tənqidçi və pedaqoq kimi tanınmış, folklor sahəsindəki çalışmaları ilə Türk ədəbiyyatında böyük xidmətlər göstərmişdir. O, yeni və müasir vətəndaş cəmiyyətinin yetişdirilməsində folklor nümunələrinin roluna böyük əhəmiyyət vermişdir.

Tahir Alangu Türk roman və hekayələri ilə bağlı dərin araşdırmaları ilə də məşhurdur. O, Türk ədəbiyyatının klassik və yeni dövrlərini tədqiq etmiş, ayrı-ayrı yazıçıların əsərlərini və mənsub olduqları fərqli ədəbi cərəyanları araşdırmışdır. Bu baxımdan ədibin “Cumhuriyyetdən Sonra Hikaye ve Roman” (3 cild, 1959-1968) və “Türk Romanına Eleştirel Bir Bakış” (1983) adlı kitabları diqqəti xüsusilə cəlb edir. Müəllif bu əsərlərində bir sıra yazıçıların realizm cərəyanındakı yerini müəyyən etməyə çalışmışdır. Onları tutduqları yaradıcılıq yollarına görə doğma rəng, sosializm, müşahidəçi, reportaj, tənqidi sosializm, tənqidçi, təsviri realizm sahələrinə aid etmişdir. O, öz fikirlərinin təsdiqi məqsədilə yerliliyi təsvir etmək üçün yerli rəng realizmindən istifadə edən müəllifləri – tənqidçi Hüseyn Rehmi Gürpınar, Ahmet Rasim və Abdulhak Şinasi Hisarı buna misal göstərir (Alangu, 1968, s.5-7).

Tahir Alangu həmçinin Fahri Celaləttinin “Moassartvari” hadisə hekayəsi, Meduh Şökə Esendal və Bekir Sıtkı Kuntun “Çexovvari” naturalist hekayə, Kənanın “Zolyavari”, Hulusinin “Edqar Allen Poevari” əsərlər yazdığını vurğulayıb.

Tahir Alangu tənqidlərində bir qayda olaraq müəllif haqqında qısa məlumat verdikdən sonra əsərin güclü və zəif tərəflərini araşdırırdı. O, tənqidçi işinin heç də asan olmadığından bəhs edərkən yazırdı: “Tənqid yazır, sənətkar dostlarımızı itiririk, yaxşı əsərlər yazsalar tənqidimiz də güllük

gülüstanlıq olardı. Təbii ki, barışacağıq. Yaşar Kamal, Orxan Kamal, Kamal Tahir, Samim Kocagöz kimi sənətkarları yaxından tanıyıram, sənətkar şəxsiyyətlərini, yaşayış tərzlərini bilirəm – mənə bu şərəfi verdilər, amma mənim işim onlarla deyil. Mən işimi dostluqlarımdan ayrı saxlayıram" (Alangu, 1958, s.38-41).

"Yeni türk realizmi" ifadəsini işlədən Alangu, məşhur yazıçı Sait Faikin əsərlərini təhlil etdikdən sonra "Yeni nəsil yazıçılarda həyata maraq yaranıb, bu dövrdə yaşayan yazıçılar əvvəl heç olmadığı qədər həyatın içindədirlər" – deyə bəyan etmişdir (Alangu, 1948, s.8).

**Hüseyin Contürk**. Obyektiv tənqidin liderlərindən olan Hüseyin Cöntürk ölkədə 60-cı illər gənc şair, yazıçı və tənqidçi nəslinin yetişməsində mübahisəsiz böyük rol oynamşdır. Müxtəlif ədəbiyyat dərgilərində yazılar yazan Hüseyin Cöntürk 1958-ci ildən başlayaraq qələmə aldığı "Eleştirmeden Önce" (1958), "Çağının Şairi" (1960), "Günlerin Götürdügü Getirdigi" (1962 - Asım Bezirci ilə müştərək) və s. əsərləri ilə tanınmışdır. Müəllifin bir sıra əsərəri isə ölümündən sonra işıq üzü görmüş "Çağının Eleştirisi" (2006) adlı kitabında toplanmışdır.

Hüseyin Contürkün tənqidi iki təməl üzərində qurulmuşdur:

– Tənqid, ədəbi mətn üzərinə qurulan üstün bir dil yaratmaqdadır. Tənqidin özünəməxsus bir dili vardır.

– Mətni özlüyündə başa düşmək lazımdır, onu xarici meyarlara görə müəyyənləşdirmək lazım deyil.

Contürk tənqiddə istifadə edilən dilə çox diqqət yetirmiş, ən əvvəl sistemli bir tənqid dili qurmağın vacibliyini ifadə etmişdir. O, həmişə Nurullah Ataçdan bəri davam edən impressionist/subyektiv tənqidin ən güclü əleyhdarı kimi çıxış etmişdir. "Yeni eleştiri" nəzəriyyəsinin qərbdən mənimsənilərək tətbiq edilməsini özünün gerçəkləşdirdiyi tənqidlərdə çox gözəl əhatə etmiş, dəyişik fəndlər tətbiq etməklə bu sahədə özündən sonra gələn gənc tənqidçilərə də yol göstərmişdir.

Araşdırmalar göstərir ki, Türkiyədə akademik tənqid sahəsində ən böyük müvəffəqiyyət qazananlardan biri və hətta ən məşhuru Hüseyin Cöntürkdür. Təbii ki, burada professor Mehmet Kaplanın (1915-1986) da daha əvvəl bəzi araşdırmalarında yeni tənqid ekolundan faydalandığını və bəlkə də bu ekolun Türkiyədəki qurucusu olduğunu qeyd etmək lazımdır. O, həm də mətn təhlili metodundan ilk dəfə istifadə edən ədəbiyyatşünasdır.

Cöntürk incələdiyi ədəbi əsərə öncə düşüncələri və hissləri, daxili əlaqələri və elementləri kontekstində münasibət sərgiləyir. Tanınmış şair Turqut Uyarın dil, mövzu, forma, anlatmaq şəkli baxımından bir yenilik etdiyi "Dünyanın En Güzel Arabistanı" adlı kitabındakı bəzi şeirləri tədqiq etdiyi "Turgut Uyar" (1961) adlı əsəri bu mənada önəmli bir misaldır. Burada o, Uyarın qarışıq dünya təsəvvürlərinə zaman-zaman müraciət etsə də öz fikirlərini ən son təhlillərində – şairin şeirlərini tədqiq edərkən açıqlamışdır (Cöntürk-Bezirci, 1961, s.57).

Hüseyin Contürk Türk ədəbiyyatı tarixinə həm də Amerika əsilli mətnə bağlı tənqidin tətbiqatçısı və pioneri kimi keçmişdir. Tənqidin mötəbər simalarından sayılan Contürk "Eleştirmeden Önce" adlı əsərində tənqid dilinin necə olmasını aydın bir şəkildə izah etmişdir. O, bu tipli yazılarda konsepsiya və terminlərin uzlaşmasının vacib olduğunu vurgulayaraq tənqidi ədəbiyyatdan ayırır, Nurullah Ataçı və Fethi Naciyi tənqid atəşinə tutur. Contürkün obyektiv tənqid anlayışı mütləq anlamda subyektivliyin düşməni deyildir. Bu məsələ ilə bağlı olaraq o, obyektiv olduqlarını iddia edən tənqidçiləri elmiliklə obyektivliyi qarışdırdıqları üçün ittiham edir: "Subyektivliyi azaltmaq deyərkən onu büsbütün yox etmək tamamilə səhv düşüncədir. İstedadlı tənqidçi, mətnin obyektiv xüsusiyyətlərinin müəyyənləşdirilməsi zamanı duyğuların təsirini də diqqətə almalıdır" (HECE, 2003, s.641).

**Cevdet Kudret**. "Yedi Meşale Edebiyyatı Topululuğu"nun təşkilatçılarından olan, Cevdet Kudret yazıçıların yaşayış tərzi ilə deyil, əsərləri ilə məşğul olmasını tərcih etmiş, həyat tərzinin kölgəsinin əsərlərin üzərinə düşməsinə qarşı çıxmışdır. Ona görə önəmli olan, yazıçılarla bağlı dedi-qodular deyil, əsərlər haqqında söylənən yepyeni rəylər və görüşlərdir. O, "hər əsəri öz quruluşuna görə ələ almaq adətinin dörd divarı içində" qalmaqdan xoşlanmamaq tənqidçinin ilk vəzifəsidir, demişdir (Kudret, 1977, s.151).

Cevdət Kudret ikicildlik "Türk ve Batı Edebiyatı" adlı əsərində: "Mətn araşdırmalarının üzərində nə qədər düşünsək azdır, hər növdə məlumat əldə etmək üçün ən qısa, ən zövqlü yol budur, hər şeyi ilk əldən alın, mənbəyə baş vurun, mətni alt-üst edin, əzbərləyin, fürsət düşdükcə istifadə edin, hətta anlamını bütün genişliyi ilə, incəlikləri ilə başa düşməyə çalışın, mətn müəllifinin müxtəlif düşüncələrini bir-birinə bağlayın, uyğunluqlarını müqayisə edin, özünüz də nəticələr əldə etməyə çalışın" – deyir (Kudret-Kabacalı, 1993, s.67).

Gerçək bir elm adamının bütün xüsusiyyətlərini özündə cəmləşdirən Cevdet Kudret ilk növbədə istedadlı bir ədəbiyyat tarixçisi, daha sonra tənqidçidir. 1950-ci illərdə yazdığı dərs kitabları, eləcə də 1960-cı illərdən sonra yazdığı "Türk Edebiyatında Hekaye və Roman", "Bir bakıma" və "Kalemin ucu" kimi əsərləri bunun ən parlaq nümunələridir.

**Vedat Günyol**. Obyektiv tənqid cərəyanına mənsub olan Vedat Günyol yazıçı, tərcüməçi və tənqidçi kimi tanınır. O, tənqidlərində araşdırdığı mətni diqqətlə incələmiş və dəlilləri öz meyarları ilə qiymətləndirməklə ortaya çıxarmışdır. Yazdığı tənqidlərdə obyektivliyi itirməməyə çalışan Günyol, müəllifin dünyagörüşü və bu dünyagörüşünün mətndə nə qədər əks olunmasına diqqət etmişdir. Üslub və məzmunda yeniliklər, sujet və roman texnikası, mövzular və xarakterlər, yazının dili və üslubu, mənbələri, söz oyunları və təsirləndiyi müəlliflər üzərində xüsusi dayanmışdır. Günyol bir yazıçını yalnız araşdırdığı əsəri ilə qiymətləndirməmiş, onun bütün yaradıcılığını diqqətlə tədqiq etmiş, onlarla qiymətləndirdiyi əsər arasında əlaqələr axtarmışdır. Günyolun araşdırmalarında həyata keçirdiyi bir başqa iş isə, müəllifi digər müəlliflərlə müqayisə etməsidir. Bu metodu müəllifin inkişaf yolunu aydınlaşdırmaq üçün tətbiq edən Vedat Günyol, tənqidlərində həmişə analiz edən, şərh verən bir üslubdan isifadə etmişdir.

Günyol yalnız bir nəzəriyyəçi deyil, həm də tətbiq edəndir. İnsana dəyər verən yazıları, əsərləri tədqiq etmişdir. O, real olan bu dünyada, real insanları və onların həqiqi problemlərini ortaya qoyan "Məhəllə qəhvəxanası"na* normal yanaşır, amma düşüncəyə, elmə, elmi reallığa arxa çevirib xurafata bel bağlayan, mistik, düşüncə düşməni olan bir cərəyana xidmət edən anlayışa və bu anlayışın təmsilçisi kimi gördüyü "Madmazel Noraliyanın kürsüsü"nün müəllifi Peyami Safaya baxışları mənfidir (Günyol, 1984, s.185-16).

**Turgut Uyar**. Türk ədəbiyyat tarixinə istedadlı və yenilikçi bir şair kimi daxil olmuş Turgut Uyar öz yaradıcılığı və fəaliyyəti ilə modern poeziyanın, məmləkətin və Anadolu poeziyasının qayğısını çəkmişdir. Bəlkə də o, məhz buna görə "hər şair məmləkətin inkişafı yolunda kiçik də olsa bir vəzifəni boynuna götürməlidir" deyirdi.

Hərbçi övladı olan müəllif: "Oxuduqlarım dəyişmiş, məkanım dəyişmişdi. Türkiyədə yeni bir ictimai-siyasi vəziyyət yaranırdı. Mən də bunun içindəydim. Dəyişiklər istər-istəməz təsir göstərirdi. Hazır əlimiz çatan şeir bəlkə yetməyirdi bu yeni vəziyyət içindəki insana. Yəni bu dəyişiklik bir baxımdan zorakı bir dəyişiklik deyildi. Tam tərsinə özünü zorlayan bir hadisə idi. Yeni

** Sait Faiq Abasıyanığın 1950-ci ildə nəşr olunan beşinci hekayə kitabıdır. Əsər həm də müəllifin nəşr olunan altıncı kitabıdır. Bu kitabdakı hekayələr üslub baxımından müəllifin əvvəlki "Lazımlı adam" kitabındakı hekayələrə çox bənzəyir.*

insana, daha doğrusu, dəyişən insana yeni təfəkkür üsulları tapmaq cəhdi idi” – sözləri ilə əslində ədəbi yaradıcılıqda yeni dövrün, yeni tələblərin başlandığını elan edirdi.

Vətənsevər bir insan olan Turgut Uyar yaradıcılığa hələ də aktuallığını itirməyən bu fikirlərlə yanaşmışdır: “Kəndimiz və kəndlilərimiz yoxluq çəkərkən, savadsızlığın pəncəsində çırpınarkən hələ Boğazın gümüş suları üzərində və sədəf mehtab altında zamparalığa çıxmış şairlərin misralarını, macəralarını oxumaq, yazmaq və bunları sənət adına, şeir adına xoş niyətli də olsa, müdafiə etmək biganəliyin *(vurdumduymazlığın)* nümayişidir” (Uyar, 1950, s.6).

**Nəticə**

Araşdırmalar göstərir ki, Türk ədəbiyyatında XIX əsrin 60-cı illərindən başlayan bir əsrlik subyektiv tənqid (*empresyonist/öznel eleştiri*) dövrü XX əsrin 60-cı illərində başa çatmışdır. Belə ki, 1960-cı il 27 may hərbi çevrilişi yalnız ölkənin siyasi həyatında deyil, həm də mədəni və ədəbi həyatında köklü dəyişiklərə yol açmış, sol hərakatın sürətlə güclənməsinə, onun ictimai-siyasi həyata, cəmiyyətin düşüncəsinə daha fəal təsir göstərməsinə gətirib çıxarmışdır. Bu prosesi bir tərəfdən də dünyada baş verən siyasi hadisələr (azadlıq hərəkatları), Qərbdə geniş intişar tapan elmi-texniki tərəqqi dəstəkləmişdir. Nəticədə ədəbiyyatda olduğu kimi ədəbi tənqid sahəsində yeni-yeni cərəyanlar ortaya çıxmışdır ki, bunlardan da ən geniş yayılanı və daha çox da marksist dünyagörüşünə əsaslanan obyektiv tənqid (*bilimsel/nesnel eleştiri*) cərəyanı olmuşdur.

Bu dövrdə tənqidi janr olaraq qəbul edən və ədəbi müstəvidə obyektiv tənqidi qızğın müdafiə edən Asım Bezirci, Tahir Alangu, Hüseyin Contürk kimi tanınmış ədiblər və onların həmkarları öz əsərləri ilə Türk ədəbiyyatına böyük töhvələr vermişlər. Onların yeni, elmi biliklərə əsaslanan, ədəbiyyata və ədəbi tənqidə, eləcə gənc yazarların yaradıcılığına pozitiv yön verən fikirləri 60-70-ci illərdə işıq üzü görən çoxsaylı əsərlərində öz əksini tapmışdır. Bu ədiblərin daha çox sosialist realizm dünyagörüşü ilə apardıqları araşdırma və təhlillər nəticəsində üzə çıxan və vüsət alan “Yeni Türkiyə realizmi” ifadəsi xüsusilə diqqəti cəlb edir. Subektiv tənqidin tərəfdarları sistemli təhlilləri ilə “Garip” cərəyanı və “İkinci Yeni şeir” dövrünü qarşılaşdıraraq ətraflı qiymətləndirmələr aparmış və belə qənaətə gəlmişlər ki:

- Tənqidin özünəməxsus dili və üslubu olmalıdır.
- Tənqid elmə və obyektivliyə əsaslanmalıdır.
- Əsərin mətnini özlüyündə anlamaq lazımdır, onu xarici meyarlara görə müəyyənləşdirmək düzgün deyil.
- Tənqid təhlilə əsaslanmalı, tənqidçi təhlillərində yaşam tərzi ilə bağlı fikir və hisslərə yer verməməlidir.
- Bədii əsər ədəbi ölçülərdən daha çox onun daxili yükü və keyfiyyətinə görə qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT

Alangu, T. (1948). Yeni Türk Realizmi ve Sait Faik. İstanbul: Varlık Yayınları.
Alangu, T. (1958). Üçüncü Adam Aramızda. İstanbul: Dost.
Alangu, T. (1968). Cumhuriyetten Sonra Hikaye ve Roman, C. 1. İstanbul: İstanbul Matbaası
Aytaç, G. (1995). Edebiyat Yazıları III. Ankara: Gündoğan.
Bezirci, A. (1960). İkinci Yeni Yol, İstanbul.
Bezirci, A. (1996). Sosyalizme Doğru, İstanbul: Evrensel Basım Yayın.
Cöntürk-Bezirci. (1961). Turqut Uyar, Edip Canever: İki İnceleme. İstanbul.

Ecevit, Y. (2009). Ben Burdayım... Oğuz Atay'ın Biyografik ve Kurmaca Dünyası. İstanbul: İletişim Yayınları.

Güngör, B. (2020). Modern Türk eleştirisinin tarihsel gelişimine genel bir bakış: "Okuma"nın dönüşümü. Kültür Araştırmaları Dergisi, Sayı: 4.

Günyol, V. (1984). "Topal Koma", Dile Gelseler. İstanbul: Cem Yayınevi.

HECE Eleştiri, Özel Sayısı (2003).

Kudret, C. (1977). Roman Deyince. İstanbul: Aka Kitabevleri.

Kudret, İ., Kabacalı, A. (1993). Cevdet Kudret'e Saygı, İstanbul: Kültür Bakanlığı Yayınları.

Uyar, T. (1950). Şiir Üzerine Mektup. Varlık, Sayı: 361.

## *РЕЗЮМЕ*

***Хураман ГАДИМОВА***

### *Сторонники объективной критики в турецкой литературе*

***Ключевые слова**: Турецкая литература, критика, объективная критика, субъективная критика*

Развитие литературной критики в Турции прошло различные этапы, начиная с периода Танзимата — 1866 года до наших дней. Среди них исследователи выделяют, в частности, два этапа. Период под руководством таких интеллектуалов, как Намик Кемаль (1840-1888), Реджаизаде Махмуд Экрем (1847-1914), Нурулла Атадж (1898-1957) и продолжавшийся до 1960-х годов, обычно считается периодом субъективной критики (импрессионизма/само-критики). Одной из характерных особенностей этого этапа является распространение идеи о том, что традиционная классическая поэзия не может возглавить формирующуюся современную поэзию в дебатах о поэзии, а критика базируется на субъективных подходах и осуществляется на уровне аргументов и оскорблений.

Второй этап - это период объективной критики (научной критики), которым руководили Асим Безирджи (1927-1993), Тахир Алангу (1915-1973) и Хусейн Контюрк (1918-2003), охватывающий 1980-1980 годы и завершивший период субъективной критики, которую часто называют марксистской критикой (научной/объективной критики). Среди факторов, влияющих на этот этап, на первый план выходит усиление левого мышления в мире.

На втором этапе в статье говорится о деятельности авторов, которые на протяжении многих лет искали оптимальные способы применения объективной критики, выступали за то, чтобы художники отдавали приоритет научному анализу в критике, и которые выступают против отражения критиком своих эмоций в работе и отвергают критику, сделанную на основе товарищества и дружбы. Помимо упомянутых здесь авторов, также обращено внимание на мнения Джевдета Кюдрета (1907-1992), Ведата Гюнёла (1911-2004) и Тургута Уйара (1927-1985), внесших большой вклад в развитие турецкой объективной литературной критики.

**ABSTRACT**

***Khuraman GADIMOVA***

***Supporters of objective criticism in Turkish literature***

***Keywords**: literature, Turkish literature, criticism, objective criticism, subjective criticism*

The development of literary criticism in Turkey has gone through various stages since the Tanzimat period – 1866 until the present day. Among them, researchers distinguish two stages in particular. The period, which was pioneered by intellectuals such as Namik Kemal (1840-1888), Recaizade Mahmud Ekrem (1847-1914), Nurullah Atac (1898-1957) and lasted until the 1960s, is generally considered the period of subjective criticism (impressionist/subjective criticism). One of the characteristic features of this stage is the spreading of the idea that traditional classical poetry cannot led to the emerging modern poetry in discussions about poetry and that criticism is conducted more on the level of debate and insult, based on subjective approaches.

The second stage is the period of objective criticism (scientific criticism), which was led by Asım Bezirci (1927-1993), Tahir Alangu (1915-1973), and Hüseyin Contürk (1918-2003), covering the years 1980-1980, and ended the period of subjective criticism and is often called Marxist criticism. Among the factors influencing this stage, the strengthening of leftist thought in the world undoubtedly comes to the fore.

In the second stage, the article discusses the activities of authors who have been searching for the optimal application of objective criticism for many years, advocating that artists should give priority to scientific analysis in criticism, and also opposing the reflection of the critic's feelings in the work, and rejecting criticism made through friendship and camaraderie. In addition to the authors mentioned here, attention is also paid to the ideas of Cevdet Küdret (1907-1992), Vedat Günyol (1911-2004), and Turgut Uyar (1927-1985), who have made great contributions to the development of Turkish objective literary criticism.